Seçkilərin Monitorinqi Demokratiyanın Tədrisi
SMDT
Election Monitoring Democracy Studies

Ünvan: 33A/75 Xudu Məmmədov küçəsi, AZ1123, Baku, Azerbaijan
Telefon: (+994 50) 333 46 74
E-poçt: emc.az2001@gmail.com
Veb: www.smdtaz.org

12 dekabr 2023-cü il Bakı, Azərbaycan

**Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin Azərbaycan Respublikasında 7 fevral 2024-cü ildə növbədənkənar prezident seçkisinin təyin edilməsi ilə bağlı**

# BƏYANATI

7 dekabr 2023-cü ildə Azərbaycan prezidenti İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsi və Seçki Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq ölkədə növbədənkənar prezident seçkisinin keçirilməsi barədə sərəncam imzalayıb[1]. Xatırladaq ki, növbədənkənar seçkinin təyin edilməsi hüququ milli qanunvericliyə 26 sentyabr 2016-cı ildə keçirilmiş referendumdan sonra gətirilib və həmin referenduma çıxarılan düzəlişlərlə bağlı Avropa Şurası Venesiya Komissiyasının rəyində dəyişikliklərin motivlərinin aydın olmadığı, referendum aktının müzakirəsinə parlamentin cəlb edilməməsi və konstitusion düzəlişlərin qüvvəyə minməsi qaydası ilə bağlı tənzimləmənin olmaması tənqid edilib[2].

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi (SMDT) 7 fevral 2024-cü ildə növbədənkənar prezident seçkisinin təyin olunması ilə bağlı hüquqi-siyasi mühiti dəyərləndirərək, seçkinin vaxtından 14 ay öncə keçirilməsi barədə sərəncamın Azərbaycan Respublikası və Seçki Məcəlləsinə uyğun olaraq verilsə də, bu tədbirlərin seçkilərin dövriliyi və demokratik konstitusionalizm prinsiplərinə uyğun olmadığını bildirir.

SMDT hesab edir ki, növbədənkənar prezident seçkisinin keçirilməsi barədə sərəncam tutarlı siyasi ehtiyaclar göstərilmədən və cəmiyyətdə açıq ictimai müzakirələr aparılmadan verildiyindən seçki prosesində bütün maraqlı tərəflərin, o cümlədən siyasi partiyalar və prezidentliyə namizədlik iddiasında olan şəxslərin iştirakını, vətəndaş cəmiyyəti qurumları və beynəlxalq seçki müşahidə təşkilatlarının hazırlığını çətinləşdirib. Bununla da Azərbaycan respublikasının qoşulduğu beynəlxalq sənədlərdə təsbit olunmuş «seçkilərin ağlabatan aralıqda və müddətdə keçirilməsinə dair» müddəalar[3] gözlənilməyib, seçkilərin növbədənkənar qaydada keçrilməsi ilə bağlı əsaslı və məntiqli izahat verilməyib.

SMDT Avropa Şurasına üzv ölkələrin təcrübəsinə istinad edərək, növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı yetərincə müstəsna halların olduğunu, habelə bu səlahiyyətdən istifadə hüququnun müstəsna şərtlər çərçivəsində tətbiq edildiyini qeyd edir. Ancaq Azərbaycan Konstitusiyasının 101-ci maddəsinin I hissəsində belə müstəsna qaydalar və şərtlər göstərilməyib, bununla da prezidentə konkret və xüsusi əsaslar göstərmədən növbədənkənar seçkilər keçirmək səlahiyyəti verilib. Beləliklə, Konstitusiyanın 101-ci maddəsinin birinci

---

[1] Sərəncamın mətni - https://president.az/az/articles/view/62417
[2] Avropa Şurası Venesiya Komissiyaasının rəyi - http://www.venice.coe.int/webforms/documents/?pdf=CDL-AD(2016)029-e
[3] Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt (25b maddə) və Avropada İnsan Hüquqları və Fundamental Azadlıqlar haqqında Konvensiyaya əlavə protokol (3 maddə)

hissəsi növbədənkənar seçkilərin elan edilməsi ilə bağlı müstəsna şərtlər və qaydaları müəyyən etmədiyindən bu səlahiyyətin özü Avropa seçki təcrübəsi ilə ziddiyət təşkil edir.

SMDT təəsüflə bildirir ki, hazırda arasında jurnalist, ictimai fəal və siyasi partiya təmsilçilərinin olduğu 200 nəfərə yaxın siyasi məhbusun həbsdə saxlanması, ifadə azadlığını məhdudlaşdıran addımlar, o cümlədən yeni "Media haqqında" və "Siyasi partiyalar haqqında" qanunlar, müstəqil internet TV və veb səhifələrin bloklanması, sosial media fəallarının kütləvi şəkildə təqib edilməsi növbədənkənar prezident seçkisi ərəfəsində vətəndaş iştirakçılığını məhdudlaşdırır, seçki prosesi ilə bağlı demokratik şəraitin təmin olunmasını çətinləşdirir. Bununla yanaşı vətəndaş cəmiyyəti və hüquq müdafiə təşkilatlarına qarşı davam hüquqi-siyasi təzyiqlər vətəndaş cəmiyyəti təşkilatlarının seçicilərin maarifləndirilməsi, seçki hüquqlarının müdafiəsi və yerli seçki müşahidəçiliyinin təşkili ilə bağlı çalışmaq imkanlarını tükəndirib.

SMDT əvvəlki seçkilərlə bağlı ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun 50-dən artıq tövsiyyəsinin, Avropa Şurası Venesiya Komissiyasının iki rəyinin və Avropa İnsan Hüquqları Məhkəməsinin seçki hüquqlarının pozulması üzrə 50-dən artıq qərarının icra olunmadığına əsaslanaraq, hesab edir ki, növbədənkənar prezident seçkisi ərəfəsində ölkədə rəqabətli siyasi mühitin yaradılması, ifadə azadlığı, sərbəst toplaşmaq və birləşmək hüququnun təmin olunması, media, siyasi partiyalar və vətəndaş cəmiyyəti institutlarına fəaliyyət imkanlarının yaradılması təmin edilməyib.

Seçki ərəfəsində həll edilməsi vacib məsələlərdən biri də seçicilərin qeydiyyatı ilə bağlı bu sahədə mövcud olan mürəkkəb mexanizmin sadələşdirlməsi, seçicilərin sayı ilə bağlı həqiqi və aşkar hesablamaların aparılmasıdır. Ancaq təəsüf ki, SMDT-nin 2009-cu ildən başlayaraq Dövlət Statistika Komitəsinin 18 yaşdan yuxarı əhali ilə MSK-nın açıqladığı seçici siyahıları arasında uyğunsuzluqla bağlı iradlarına diqqət yetirilməyib.

*SMDT 7 fevral 2024-cü ildə növbədənkənar prezident seçkisinin azad, şəffaf və rəqabətli qaydada keçirilməsi üçün aşağıdakı istiqamətlərdə tədbirlərin keçirilməsini zəruri hesab edir:*

- Yerli və beynəlxalq hüquq müdafiə təşkilatlarının siyasi məhbus hesab etdiyi şəxslər azad edilsin;

- Bütün siyasi partiyalara öz toplantı və yığıncaqlarını, habelə dinc etiraz aksiyalarını keçirmək hüquqları tanınsın;

- Yerli və beynəlxalq QHT-lərin ölkədə sərbəst şəkildə fəaliyyətini əngəlləyən qanunlara demokratik dəyişikliklər edilsin, vətəndaş cəmiyyəti fəallarına qarşı təqiblərə son qoyulsun;

- Jurnalistlər və bloqerlərə qarşı təqiblər dayandırılsın, müstəqil və müxalif veb portalların bloklanması tədbirləri aradan qaldırılsın;

- Azərbaycan hakimiyyəti ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu ilə Avropa Şurası Parlament Assambleyasına müraciət edərək, hər iki qurumun beynəlxalq seçki müşahidə missiyasını ölkəyə dəvət eləsin;

*Qeyd: SMDT 2001-2020-ci illərdə Azərbaycanda keçrilən bələdiyyə, parlament, prezident seçkiləri və referendumlar zamanı vətəndaşların seçki hüquqlarının müdafiəsi, seçki prosesinin müşahidəsi və seçki prosesi barədə ictimai məlumatlandırmanın təşkili yönündə çalışıb.*